**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**QƏRAR**

**№**3-44/3-9-12/2024

**Bakı şəhəri** “13” avqust **2024-cü il**

**Karantin tətbiq edilən zərərli orqanizm aşkar edilmiş moruq təsərrüfatlarında bitki mühafizəsi tədbirlərinin görülməsi haqqında**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra - Agentlik) Qazax-Tovuz regional bölməsinin Bitki sağlamlığı və fitosanitar nəzarəti sektorunun əməkdaşları tərəfindən regional bölmənin əhatə etdiyi inzibati ərazi vahidlərində fitosanitar vəziyyətin müəyyənləşdirilməsi məqsədilə Şəmkir rayonunun Şəmkir şəhəri ərazisində yerləşən, fiziki şəxslər Rzayev Rza Məhəmmədhüseyn oğluna (3.5 ha) və Abışov Samir Nəriman oğluna (7.5 ha), Çinarlı kəndində yerləşən, fiziki şəxs Abbasov Bayram Məcid oğluna (0.8 ha), Seyfəli kəndində yerləşən, fiziki şəxslər Quliyeva Nəsibə Qədimqulu qızına (0.83 ha), Məmmədov Rzaqulu Şirin oğluna (0.8 ha) və Salmanov Ramin Həsən oğluna (0.3 ha), Yeni Həyat kəndində yerləşən, fiziki şəxslər Qurbanov Akif Müzəffər oğluna (0.5 ha), Paşayev Arzu İlqar oğluna (0.4 ha) və Orucov Səməd Dilqəm oğluna (0.35 ha) məxsus moruq təsərrüfatlarında (bundan sonra – sirayətlənmiş sahələr) fitosanitar müşahidələr aparılmış və götürülmüş bitki nümunələri laborator müayinələrə cəlb edilmişdir. Laborator ekspertizanın nəticələrinə uyğun olaraq, 2024-cü il 19 iyul tarixli 21100213/LAB15-24003-T-003 nömrəli, 2024-cü il 19 iyul tarixli AZ-21100213/LAB15-24004-T-004 nömrəli, 2024-cü il 19 iyul tarixli 3SEDJON/LAB15-24005-T-005 nömrəli, 2024-cü il 11 iyul tarixli 2HFRR64/LAB15-24005-T-005 nömrəli, 2024-cü il 11 iyul tarixli 545VZMA/LAB15-24003-T-003 nömrəli, 2024-cü il 11 iyul tarixli 545VZMA/LAB15-24004-T-004 nömrəli, 2024-cü il 19 iyul tarixli 6EMZ2T4/LAB15-24002-T-002 nömrəli, 2024-cü il 19 iyul tarixli 1K9H9MP/LAB15-24004-T-004 nömrəli 2024-cü il 19 iyul tarixli 1YBZ3RW/LAB15-24003-T-003 nömrəli sınaq protokoluna əsasən, götürülən nümunələrdə karantin tətbiq edilən Asiya giləmeyvə drozofilasının (*Drosophila suzukii* Matsumura) mövcudluğu təsdiqlənmişdir.

Qeyd olunanlara əsasən, bitki və bitkiçilik məhsullarında zərərli orqanizmlərin kütləvi yayılmasının qarşısının alınmasına, xəstəliklərin aradan qaldırılmasına, məhsul itkisinə yol verilməməsinə, ətraf mühitin və əhalinin sağlamlığının qorunmasına yönəldilmiş bitki mühafizəsi tədbirlərinin həyata keçirilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13

noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-12-ci yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** Agentliyin Tovuz-Qazax regional bölməsinin Bitki sağlamlığı və fitosanitar nəzarəti sektorunun əməkdaşlarına tapşırılsın:

1.1. Şəmkir rayonu ərazisində Asiya giləmeyvə drozofilası ilə sirayətlənmiş ərazilərin sərhədləri müəyyən edilsin;

1.2. sirayətlənməsi təsdiqlənmiş təsərrüfatlarda istehsal edilən meyvələrin kasa yarpağından təmizlənmədən və şoklamaya[1] məruz qalmadan regionlararası daşınması qadağan edilsin. Bu tələbə cavab verməyən məhsulun yalnız həmin region daxilində satışına, yaxud emalına (şirə, cem və s. istehsalı) icazə verilsin;

1.3. sirayətlənmiş təsərrüfatlardan yığılmış məhsulların saxlama anbarlarına daşınıb-daşınmaması aydınlaşdırılsın və əgər belə hal varsa, anbarlardakı məhsul digər məhsullardan təcrid edilsin.

**2.** Sirayətlənmiş təsərrüfatlar ən azı üç il ardıcıl olaraq Milli Monitorinq Planına daxil edilsin, iyun və iyul aylarında olmaqla ildə ən azı iki dəfə meyvə nümunələri götürülərək müvafiq parametrə görə laborator müayinələrə cəlb edilsin.

**3.** Zərərvericinin yetkin fərdləri ilə mübarizə məqsədilə sirayətlənmiş sahələrdə və 1 km radiusda yerləşən təsərrüfatlarda havanın temperaturu nəzərə alınmaqla erkən yazdan (mart ayının sonu-aprel ayının əvvəli) başlayaraq təsərrüfatın mülkiyyətçisi tərəfindən feromon və ya ev şəraitində hazırlanmış tələlər (plastik qablara alma sirkəsi qoymaqla) asılsın.

**4.** Zərərvericinin daha geniş ərazilərə yayılmasının qarşısını almaq məqsədilə sirayətlənmiş sahədə mütəmadi olaraq alaq otları təmizlənsin, bitki qalıqları sahədən çıxarılaraq üzərinə sönmüş əhəng səpilməklə ən azı 30 sm dərinlikdə basdırılsın.

**5.** Tələlərdə Asiya giləmeyvə drozofilasının yetkin fərdlərinə rast gəlindikdə meyvələrdə sürfələrin mövcudluğu yoxlanılsın və iqtisadi ziyanlı həddi nəzərə alınmaqla kimyəvi mübarizə tədbirləri aparılsın.

**6.** Pestisidlərdən istifadə zamanı istehsal olunan məhsulda pestisidlərin qalıq miqdarının yol verilən həddən artıq olmaması üçün istifadə reqlamenti gözlənilsin və Agentliyin sədrinin 2020-ci il 30 yanvar tarixli Ü/012 nömrəli əmri ilə təsdiq edilmiş "Pestisidlərdən istifadə zamanı təhlükəsizlik və şəxsi gigiyena qaydalarına dair Təlimat"da göstərilən təhlükəsizlik qaydalarına ciddi riayət edilsin.

**7.** Bu Qərarın icrasına nəzarət Agentliyin Tovuz-Qazax regional bölməsi tərəfindən həyata keçirilsin.

**8.** Bu Qərarın icrasından yayınan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

**9.** Agentlik Aparatının Bitki sağlamlığı və bioloji təhlükəsizlik şöbəsi bu Qərarın aidiyyəti üzrə göndərilməsini təmin etsin.

**Bitki sağlamlığı və bioloji təhlükəsizlik**
**şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət fitosanitar müfəttişi** **Taleh Şəmiyev**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi
Baş Dövlət Fitosanitar Müfəttişi
Chief State Phytosanitary Officer
Food Safety Agency of the Republic of Azerbaijan

[1] Məhsulun müvafiq temperaturda (bu halda - 18-20$^0$C-də) dondurulması.